# "PROMETEY" JURNALINDA AZƏRBAYCANLI MÜHACİRLƏRİN FƏALİYYƏTİ

**N.YAQUBLU**
***Bakı Dövlət Universiteti***

1996-cı ildə Türkiyədə Semih Vannerin nəşrə hazırladığı "Unutqan tarix" kitabında prometeyçilik hərəkatı belə təqdim edilirdi: "Prometeyçilik, öncəliklə, Rus imperatorluğunda 1917-ci il dövrümü sırasında ortaya çıxan müstəqil cumhuriyyətlərin başarıqsizlığından doğan, bu başarıqsızlıqdan sonra SSRİ-dən ayrılan rus olmayan mühacirlərin qurduqları bir hərəkat olaraq tanınmalıdır. Bu hərəkatın rəhbərləri Şərqi Avropanın paytaxtlarında yerləşdilər. Qızıl Orduya qarşı müxalifətə qalxan bu kadrlar içəridə uğursuzluqla qarşılaşınca sürgündə bolşevizmə qarşı bir cəbhə yaratmağa çalışdılar" (1, 17).

Həqiqətən də özünə mifoloji bir ad seçən bu hərəkat uzun ömürlü olmuş, müxtəlif ölkələrdə yaşayan böyük nüfuz sahibi insanları bir araya gətirmişdir. "Prometeyçi" adı ilə Varşavada, Berlində, Parisdə, İstanbulda, Şanxayda, Münhendə, Helsinkidə, Tokioda, SSRİ ətrafında böyük bir şəbəkə qurulmuşdu. Bu hərəkatın çox əhəmiyyətli fəaliyyətini əks etdirən "Prometey" jurnalı 1926-1938-ci illər arasında Parisdə fasiləsiz olaraq nəşr edilmişdir.

"Prometey" haqqında daha ətraflı məlumatı fransız tarixçisi Etyen Koponun 1993-cü ildə Parisdə çap edilmiş "Prometey hərəkatı" məqaləsindən öyrənmək mümkündür. Həmin məqaləni tanınmış ziyalı Ramiz Abutalıbov 2006-cı ildə Moskvada nəşr edilmiş "Parisdəki görüşlər və illər" kitabında oxuculara təqdim etmişdir. "Prometey hərəkatı" haqqında kitabda aşağıdakı maraqlı məqamlar vardır: "Həmin illərdə siyasi mühacirlərin əsas məskunlaşdığı yer Paris idi. Burada A. F. Kerenski əksbolşevik təşkilatı yaratmışdı və "Gün" adlı mətbuat orqanı yayınlayırdı. Ancaq rus əsilli olmayan əksər mühacirlər onu rus koloniya siyasətini müdafiə etməkdə, Qafqaz və Türküstan respublikalarına müstəqillik verməməkdə günahlandırırdılar. Türkiyədə və başqa Avropa şəhərlərində müəyyən cəhdlərdən sonra, məhz Fransada bu siyasi mühacirlər marşal Pilsudskinin dəstəyi ilə aylıq "Prometey" jurnalını fransız dilində nəşr etməyə başladılar. Bütün mühacirəti özünün uzunömürlülüyü ilə təəccübləndirən bu jurnal 1926-1938-ci illərdə fasiləsiz nəşr edildi. Bütün bu dövrdə jurnalın redaktoru gürcü Georgi Qvazava idi. 1938-ci ildə jurnalın formatı dəyişdi və o "Revyu de Prometey" adı ilə nəşr edilməyə başladı. Həmin vaxtdan jurnalın bağlanmasına – 1940-cı ilə qədər jurnalın baş redaktoru Ukraynanın keçmiş Xarici İşlər Naziri (1918-ci ildə) Aleksandr Şulqin olmuşdu.

"Prometey" hərəkatı yaradılmasının ilk təəssübkeşlərindən biri Başqırdıstan Respublikasının ilk rəhbəri olmuş (1917, noyabr) Əhməd Zəki Validov-Toğan idi. 1923-cü ildə o, Parisə gəldikdə Mustafa Çokayoğlu, Əlimərdan bəy Topçubaşov və

Səbri Maqsudi ilə tanış olur. 1924-cü ilin iyununda o, Polşa hökumətinin rəsmi nümayəndəsi olan cənab Stempovski ilə görüşür. Bu görüşdə Fransada "Prometey" jurnalının yaradılması qərara alınır. Jurnalın redaksiya heyəti və daimi müəllifləri tərkibinə Qafqazın, Türküstanın və Ukraynanın aşağıdakı görkəmli xadimləri daxil oldular: Məhəmməd Əmin Rəsulzadə, Noy Jordaniya, Aleksandr Şulqin, Ayaz İshaqi, Mustafa Çokayoğlu, Miryaqub Mehdiyev və başqaları" (2, 66).

Polşada Prometeyin təşəkkül tapması ilə bağlı "Polskaya Mısl" (Polşa düşüncəsi") qəzetinin redaktoru V.Bonçkovskinin "Vosxod" ("Şərq") jurnalında çap olunan "Prometey problemi" məqaləsi də maraqlıdır. Müəllif yazırdı: "Rusiya Lehistana (Polşaya) çöllüklərin və Şimalın ac bir övladı kimi baxır: o öz qərb "ölkələri"ni qeyb etdikcə, xarici Monqolustanı felən işğal edir və Çində bir Kommunist Cumhuriyyəti vücuda gətirir. 1926-da V. İvanov: "Rus dövlətinin qüvvəti özünü işğalda göstərir" deyə yazmışdı. Məhrəm sovet xarici siyasətinin şüarı da belə deyir: "Şərqdə Yapon faşizmini enmək üçün onun qərbdəki arxasını məhv etmək lazımdır". Sovetlər İspaniyada milliyyətçi Avropa ilə hərb edir və Şanxay cəbhəsində terror hərəkatını himayə edir. Sovetlər Avropada "xalq cəbhələri" təşkil edir və Çini Nippon ilə çarpışmaq üçün ayaqlandırır" (3, 4).

Sonra müəllif Sovet təhlükəsindən uzaqlaşmağın yolunu məhz "Prometey" millətçilərinin apardığı mübarizədə görür: "Bu vəziyyətin doğurduğu bir zərurətdir ki, qısa olaraq Ukrayna, Qafqaz, Türküstan və s. ölkələr başda olmaqla Rusiyanı ayrı-ayrı milli dövlətlərə parçalamaq şüarında ifadəsini tapan Prometey məsələsi, Lehistan üçün əlverişli olmayan qonşu dövlətlərin inkişaf edən təzyiqlərinin indiki vəziyyətdə, bu təzyiqin daha artıq hiss edildiyi bir məntəqədə, yəni rus-leh məntəqəsində önünə işinə yarıyacaq ən müsbət və yeganə bir çarədir. Mübaliğə etmədən deyə bilərik ki, qüvvətli bir dövlət və öz bütövlüyü yolunda çarpışa biləcək vəziyyətdə olmaq mənasında, Lehistanın istiqbalı Prometey məsələsinin gerçəkləşməsi, yaxud, daimi olaraq Rusiyanı zəif düşürməyə yarıyacaq aktual bir şəkil alacağından asılıdır.

"Prometey" həqiqəti ilə Leh həqiqəti arasındakı bağ olduqca qüvvətlidir və bilirik ki, beynəlmiləl münasibətlər tarixində məhkum və dövlət həyatından məhrum millətlərlə, dövlət və istiqlala sahib bir millət arasında bu dərəcə mənfəət yaxınlığını göstərən çox az misal vardır. Lehistanın bir dövlət halında müstəqil olması və Prometey millətlərinin əsarətdə qalması bu işə ancaq taktika və vəziyyətə aid bir təzad və uyğunsuzluq qatmışdır" (3, 4).

Qeyd edək ki, "Prometey" ideyası getdikcə daha çox ölkədə özünə dayaq tapırdı. Belə ölkələrdən biri də İtaliya idi. İtaliyada yaşayan gənc alim, Yaxın Şərq və Uzaq Şərq problemlərinin tanınmış bilicisi Lauro Maynardi əsasən "Prometey" xalqlarının problemlərindən bəhs edən "Notiziario Orientale" adlı mətbuat orqanı nəşr etməyə başlamışdı (3, 43). Jurnalın fəaliyyət istiqamətləri haqqında redaktorun yazdığı baş məqalədən öyrənmək mümkündür: "Şərq problemlərinin diqqətli müşahidəçisi Uzaq Şərqdəki vəziyyətə diqqət yetirməyə bilməz. Biz hər şeydən əvvəl Yaponiya ilə Rusiya arasındakı mümkün konflikti nəzərdə tutmuruq. Məhz bu konflikt mərkəzi bolşevik hakimiyyətini yıxıb, Rusiya imperiyasının çoxmillətli dövlətlərə parçalanmasına səbəb ola bilər. Rusiyanın parçalanmaq formasını başa düşmək üçün mütəxəssis olmaq da lazım deyildir. Bu, belə olacaqdır: Ukrayna, Kazaklar ölkəsi, Qafqaz (4 xalqla: Azərbaycan, Gürcüstan, Ermənistan, Şimali Qafqaz və ya Çərkəzistan), Türküstan, Sibir və s. Və bunun əsasında müstəqil dövlətlər yaranır. Bütün bunlar Şərqi Avropada, Qara dənizdə, Yaxın və Uzaq Şərqdə yeni situasiya yaradır.

O ki qaldı İtaliya imperiyasına, biz təsdiq edirik ki, o, bu ölkələrin hər birində “status-kvo”nun dəyişdirilməsində tamamilə maraqlıdır. Onu məcbur edirik ki, bizdə Ukraynanın, Kazak torpaqlarının və Qafqazın tarixi, coğrafiyası, iqtisadiyyatı ilə məşğul olsunlar. Və həm də bu ölkələrin milli hüquqlarını, tələblərini, gələcəkdə azad xalqlar sırasındakı əhəmiyyətini aydınlaşdırsınlar” (3, 43).

Göründüyü kimi, İtaliyada da artıq Rusiya əsarəti altında qalan xalqların problemlərinə diqqət yetirilirdi.

“Prometey” jurnalına siyasi və mənəvi dəstəyi verənlər arasında aşağıdakılar vardı: Bu dəstəyi ilk verən Varşavadakı Şərqşünaslıq İnstitutu idi. İnstitutun “Vosxod-Orient” adlı mətbu orqanı da çap olunurdu. İsveçrədəki dəstəyi isə “Jurnal de Jenev” qəzetinin baş redaktoru Jan Marten idi. Lakin “Prometey”in ən nüfuzlu lobbisti, 20 ilə qədər İsveçrənin Xarici İşlər Naziri və Millətlər Liqasında əsas məruzəçisi olmuş Cüzeppe Motta idi. Məhz onun fəallığı ilə 1922-ci ildə Gürcüstanın Millətlər Liqasına daxil olması haqqında qərar qəbul edilmişdi. Cüzeppe Motta SSRİ-nin 1934-cü ildə Millətlər Liqasına daxil edilməsinin qəti əleyhdarı idi.

Fransada isə “Prometey”i Senatın prezidenti Pol Dummerin başçılıq etdiyi “Frans-Orian” Komitəsi, eləcə də Əlimərdan bəy Topçubaşov, Ceyhun Hacıbəyli, Türkiyənin Parisdəki səfiri Fəthi bəy, Mustafa Çokayoğlu, türkoloq Jozef Kastanye və başqaları müdafiə edirdilər...

Qeyd olunmalıdır ki, “Prometey” redaksiyası SSRİ ilə bağlı əksər məlumatı Türkiyədən alırdı. Jurnalın bu bölməsinin əsas müəllifləri M.Ə.Rəsulzadə, Miryaqub Mehdiyev, Mustafa Çokayoğlu, S.Menaqari və A.Asatiani idilər. “Prometey”də ən çox “İstiqlal”dan (Berlin, redaktor M.Ə.Rəsulzadə - red.), “Azərbaycan Yurd Bilgisi”, “Yeni Qafqasiya”, “Yeni Türküstan” və “Odlu Yurd”dan (İstanbul) yazılar çap edilirdi. “Prometey”in xidməti sayəsində Avropa ictimaiyyəti Zaqafqaziyadakı sürgünlər, həbslər haqqında məlumat əldə edirdilər...

Qeyd etdiyimiz kimi, 1938-ci ildən başlayaraq “Prometey” jurnalı adında və formatında dəyişiklik etdi. Həmin ildən jurnal bu adla nəşr edilməyə başladı: “La Revyu de Prometey”.

Yeni adla nəşr edilən jurnal daha çox Prometey hərəkatının ensiklopediyası tendensiyasına üstünlük verirdi. Jurnalın yeni nəşrinin ilk sayında Varşava Universitetinin professoru A.Lotoçskinin 1905-ci ildə Rusiya Müsəlmanlarının keçirdiyi ilk toplantıya həsr edilən məqaləsi çap olunmuşdur. Müəllif bu ideyanın inkişaf etdirilərək 1917-1918-ci illərdə bəhrə verdiyini yazırdı. Məhz bu ideya rus olmayan xalqların Rusiyadan tamamilə ayrılmasına və milli dövlətlərini qurmasına şərait yaradırdı. Müəllif yazırdı: “Muxtariyyatçı-federalistlərin Birliyi və əzilən xalqların müasir təşkilatların yalnız bir şüarı vardır... Millətçiliyimiz uğrunda, hamı birimiz üçün, birimiz hamı üçün!” (4).

Həmin sayda “Jurnal de Geneve” jurnalının şef-redaktoru, qafqazlı mühacirlərin yaxın dostu J.Marşenin də maraqlı məqaləsi çap olunmuşdur. Müəllif təəssüf edir ki, İspaniya və Çində olan müharibələr və digər Avropa problemləri Qafqaz məsələsini arxa plana atmışdır. Lakin o, göstərir ki, Qafqaza diqqət yenidən artacaqdır: “Qafqaz yenidən dirçələcəkdir. Mən buna tam şəkildə inanıram. İnanıram ki, ayrı-ayrı Qafqaz dövlətlərinin patriotları həmrəy olub, birlikdə işləyəcəklər” (4).

Jurnalın ədəbiyyat bölməsində isə azərbaycanlı mühacir doktor Miryaqubun Füzuli və Şah İsmayıl Xətainin yaradıcılığının dərin təhlili verilmişdir.

1939-cu ildə Polşanın nasist Almaniyası tərəfindən işğalı ilə bağlı "Revyu de Prometey" jurnalının nəşri üçün də problemlər yarandı. Mustafa Çokay, A.Şulqin, Miryaqub Mehdiyev, Noy Jordaniya bütün həmyerlilərinə müraciət edib, onları alman-sovet koalisiyasına qarşı müqavimətə çağırırdılar. Sonuncu sayın redaksiya məqaləsində (8-9 aprel, 1940-cı il) oxuculara təklif edilirdi ki, cuma və xolera xəstəlikləri arasında seçim etmək lazım deyil, sadəcə Finlandiyanın qəhrəmanlıq mübarizəsindən nümunə götürmək lazımdır" (2, 66-67-68).

"Prometey"in yaradılmasında ilk təşəbbüsçülər sırasında M.Ə.Rəsulzadənin də adı çəkilir. Tədqiqatçı X.İbrahimlinin "Azərbaycan siyasi mühacirəti" kitabında yazılır: "Hələ 1923-cü ilin iyunun 26-da çıxan "Yeni Qafqasiya" məcmuəsinin birinci nömrəsində M.Ə.Rəsulzadə Zevsin Prometeyi Qafqaz dağlarına zəncirlənməsini və qartalın onun ciyərlərini hər gün didməsini, Azərbaycanın, eyni zamanda Qafqazın mövcud siyasi durumu ilə əlaqələndirərək yazırdı: "Qafqasiyanın tarixini, son əsrdəki güzəran edən əhalini və bir xassə indiki vəziyyətini ifadə etmək üçün bu əsatirdən daha gözəl bir rəmz tanımaq mümkün deyil" (5, 150). Azərbaycanı və Qafqazı Prometey adlandıran müəllif onu parçalayıb, qanına qəltan edənin gerbində ikibaşlı qartal həkk edilən Rusiya imperiyası olduğunu göstərirdi. Bu yazının analoji variantı Birliyin 1926-cı il yanvarın 10-dan çıxmağa başlayan eyni adlı jurnalının birinci sayında da dərc edilmişdi" (5, 150).

"Prometey"in yaranma tarixi və fəaliyyəti ilə bağlı alman tədqiqatçısı Muhlenin və Polşa tarixçisi Mikuliçin də araşdırmaları maraqlıdır.

Tanınmış tədqiqatçı Mirzə Bala Məmmədzadə isə "Prometey"in ayrıca bir gənclər şöbəsi olması haqqında məlumatlar bildirir: "Kommunist firqələri və Komintern yeni kadrosunu gənc kommunistlər birliyindən alır. Buna qarşı məhkum millətlərin gəncləri "Pometey" Gənclər Təşkilatı yaratmalı və yaşlı nəslin açdıqları istiqlal davasını davam etdirəcək kadro və nəsil yetişdirməlidirlər" (6, 7).

Qeyd edək ki, "Prometey" təşkilatı özünün əsas orqanı olan "Prometey"i nəşr etməklə yanaşı, ayrı-ayrı xalqların mühacirət mətbuatı orqanlarına da maddi dəstək göstərirdi. Mühacirlərin aşağıdakı yayım orqanlarını bu sıraya daxil etmək mümkündür: 1) Parisdə gürcülərin çap etdiyi "Sakartvelo"; 2) Rumıniyada Krım tatarlarının nəşr etdiyi "Əməl"; 3) Varşavada nəşr olunan "Kavkaz", (Şimali Kavkas); 4) İdil-Ural türklərinin yayım orqanı olan "Yana Milli Yol" ("Yeni Milli Yol"); 5) Türküstanlıların nəşri olan "Yaş Türküstan" ("Gənc Türküstan"); 6) Azərbaycanlıların nəşr etdiyi "Kurtuluş".

Qeyd edək ki, 20-30-cu illərdə azərbaycanlı mühacirlərin də fəallığı ilə Qafqaz Birliyi ideyası reallaşıb ciddi təşkilata çevrildi. Azərbaycandan, Gürcüstandan, Şimali Qafqazdan olan təmsilçilər bu ad altında əslində çoxdan fəaliyyət göstərirdilər. Qeyd olunmalıdır ki, hələ 1915-ci ildə Səlim bəy Behbudovun fəallığı ilə ayrıca Qafqaz Komitəsi yaradılmış, sonradan bu məsələ 1918-ci ildə Trabzon konfransında, 1919-cu ildə Müsavat Partiyasının qurultayında əsaslandırılmışdı. Qeyd olunmalıdır ki, Qafqaz birliyi ideyası ilə bağlı məlumatlara da "Prometey" jurnalında rast gəlmək mümkündür.

Qeyd edək ki, Azərbaycanda həmin illərdə yaşayan polyaklar həmişə bu ideyanın tərəfdarı olmuşlar. Belə ki, 1920-ci ilin aprelin 7-də Qafqaz Respublikalarının Tiflis konfransında Azərbaycan nümayəndə heyətindən olan H. Ağayev (heyətin rəisi), F.Xoyski, M.Vəkilovla yanaşı polyak-tatar O.H.Mirzə Kriçinski də təşəbbüs göstərib Qafqaz Cumhuriyyətləri Şurası yaratmaq barədə razılaşma əldə etmişdilər. Şuranın yaradılması ilə bağlı 24 maddədən ibarət layihəsini isə O. Nayman Mirzə

Kriçinski hazırlamışdı. Lakin 1920-ci ilin aprelin 27-də bolşeviklərin Azərbaycanı işğal etməsi səbəbindən bu layihə həyata keçirilmədi (7).

Lakin bu istiqamətdə çalışmalar davam edirdi. 1921-ci ildə Şimali Qafqaz, Azərbaycan, Gürcüstan, Ermənistan hümayəndə heyətləri arasında Parisdə müraciət imzalandı (5, 159). 1924-cü ilin oktyabr-noyabr aylarında Azərbaycan, Gürcüstan və Şimali Qafqasiya təmsilçiləri yenidən Parisdə toplaşır və “Qafqasiya Sovet Rus qüvvətlərindən qurtular-qurtulmaz, yüksək dövlət strukturlarının birləşməsi yolu ilə bir federalist qurum yaratmaq” planlaşdırılır. Məlum olduğu kimi, hələ 1924-cü ilin iyunun 11-də Azərbaycan, Gürcüstan və Şimali Qafqaz nümayəndələrinin imzaladığı protokol əsasında formalaşan Daimi Şura öz qarşısına üç respublika adından diplomatik işlər aparmağı və bu xalqların bir konfederativ dövlətdə birləşdirilməsi üçün bütün tədbirləri görməyi qarşısına məqsəd qoyurdu. Göründüyü kimi, Qafqaz Konfederasiyasının formalaşması üçün ciddi addımlar atılırdı.

Bununla bağlı təmsilçilər 1924-cü ilin sonlarında qurtuluş mücadiləsini dəstəkləməklə səlahiyyətli bir Qafqasiya Komitəsi qurur (1, 37).

1927-ci ildə Varşavada müstəqillik elanının 10 illiyi ilə bağlı keçirilən tədbirlərdə qafqazlı təmsilçilərdən ibarət bir konfederasiya yaratmaq ilkin olaraq səslənir. Bir il sonra isə bu qurumun adından Millətlər Cəmiyyətinə önəmli bir nota verilir (8, 1-3).

Qafqaz Birliyi ilə bağlı formalaşan bu qurumun fəaliyyətinə Polşa dövləti böyük köməklik edirdi. Eyni zamanda Polşa bu təşkilatın fəaliyyətini də əlaqələndirir, maliyyə işində dəstək göstərirdi.

Qafqaz Konfederasiya görüşünü vacib bilən Azərbaycan, Gürcüstan və Şimali Qafqazın mühacirətdəki milli təmsilçiləri 1934-cü ilin 14 iyulunda Belçikanın mərkəz şəhəri Brüsseldə toplaşaraq “Qafqaz Konfederasiya sazişi”ni imzaladılar. Ermənistan təmsilçiləri isə sazişi imzalamaqdan imtina etdilər.

Qafqaz Konfederasiya sazişini (misaqini) Azərbaycan, Gürcüstan və Şimali Qafqaz təmsilçiləri olaraq aşağıdakı liderlər imzalamışdılar: 1) Azərbaycan adına: Məhəmməd Əmin Rəsulzadə - Azərbaycan Milli Şurasının keçmiş rəisi, Müsavat Partiyası və Azərbaycan Milli Mərkəzi lideri; Əlimərdan bəy Topçubaşov – Azərbaycan parlamentinin keçmiş sədri və Azərbaycan Cumhuriyyəti Nümayəndə Heyəti sədri. 2) Gürcüstan adına: Neo Jordaniya – Gürcüstan Cumhuriyyətinin keçmiş Cumhurbaşqanı və Gürcüstan Milli Mərkəzinin rəisi; Ə.Çxenkeli – Gürcüstan Cumhuriyyətinin Parisdəki keçmiş nümayəndəsi; 3) Şimali Qafqaz adına: Şimali Qafqaz Cumhuriyyətinin keçmiş dövlət adamları – Məhəmməd Girey Sunc, İbrahim Çulik, Tausultan Şakman.

Sazişin ümumi müddəalarından göründüyü kimi, bu milli mübarizə liderləri bir həqiqəti yəqinləşdirmişdilər ki, yalnız ölkələrinin azadlıq və tam istiqlala qovuşacağı təqdirdə millətlərin xoşbəxt həyatı mümkündür. Aydın olurdu ki, bu xalqların birbirinə inam birliyindən siyasi və iqtisadi vəhdətin olacağı mümkündür. Konfederasiyaya daxil olan hər bir cumhuriyyətin dövlət hüdudularının qorunması da önəmli bir hadisə idi.

Bu tarixi hadisədən məmnun qalan M.Ə.Rəsulzadə həmin ilin noyabrında dünyasını dəyişən Ə.M.Topçubaşovun dəfn mərasimində demişdi: “Xəstəliyin, qocalığın və mühacirətdəki yoxsulluğun zəif saldığı həyatının son günlərində imzaladığı Qafqasya Konfederasyonu Musaqinin elanından Əlimərdan bəy son dərəcə məmnun idi” (7).

“Prometey” jurnalında mühacirlərin Qafqaz birliyi istiqamətində çalışmaları öz geniş əksini tapmışdır.

## ƏDƏBİYYAT

1. Unutkan tarih (Sovyet Sonrası Türkdilli xalqlar. Hazırlayan: Semih Vaner). İstanbul: 1996, s. 397.
2. Абуталыбов Р. Годы и встречи в Париже. М.: 2006, с. 222.
3. Şimali Kafkasya / Severnıy Kavkaz, Varşava, 1938, №47-48.
4. Promethee, Paris, 1926, №1.
5. İbrahimli X. Azərbaycan siyasi mühacirəti. Bakı: Elm, 1996, s. 308.
6. Mirza Bala. Kafkasyada Milli Hareket. "Kurtuluş", №36, 1937.
7. Kurtuluş, Berlin, 1935, №5.
8. Promethee, Paris, 1928, №23.
9. Kurtuluş, Berlin, 1934, №2.


## ДЕЯТЕЛЬНОСТЬ АЗЕРБАЙДЖАНСКИХ ЭМИГРАНТОВ В ЖУРНАЛЕ «ПРОМЕТЕЙ»


**Н.ЯГУБЛУ**



**РЕЗЮМЕ**

В статье проанализированы формирование организации «Прометей» и деятельность азербайджанских эмигрантов в её одноимённом журнале. Отмечу, что прометейство было движением организованным не русскими эмигрантами. Журнал «Прометей» начал своё издание в Париже на французском языке в 1926-ом году. Главным редактором журнала был Георгий Гвазава – грузин по национальности. В редакционный состав журнала входили Магамед Амин Расулзаде, Ной Джордани, Александр Шулгин, Аяз Исшаги, Мустафа Чокайоглы, Мирьягуб Мехтиев и др. Большинство опубликованных материалов о СССР в журнале «Прометей» получали из Турции. Европейская общественность получала информацию о процессах происходящие на Кавказе и в Азербайджане на основе этих материалов. Основную поддержку журналу «Прометей» оказывало Польское государство.


## THE ACTIVITY OF AZERBAIJAN EMIGRANTS IN THE MAGAZINE "PROMITE"


**N.YAQUBLU**



**SUMMARY**

The formation of the organization "Promite" and the activity of Azerbaijan emigrants are analysed in the article of its magazine of the same name. I will note that "The Promite" was a mowement organised not by Russian emigrants. The magazine "Promite" began its edition in Paris in French Language in 1926. Gearge Gvazava, a Gergian man, was the head editor-in-chief of the magazine. Mahammad Amin Rasulzadeh, Noy Gordani, Alexander Shulqin, Ayaz Iskhagy, Mustafa Chokhayoqly, Miryagub Mehdiyev and others were the cast of editorial of the magazine. The majority of the published materials about the USSR in the magazine "Promite" were provided from Turkey. The European public received information about processes occuринq in caucasus and in Azerbaijan on the basis of these materials. The main support to the magazine "Promite" was rentered by Polish state.